## İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinin 2023-cü il üzrə audit edilmiş maliyyə hesabatlarının qısa icmalı

İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (Agentlik) telekommunikasiya və poçt sahəsində tənzimləyici qurum olaraq 2022-ci ildə fəaliyyətə başlamışdır. Müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak, tənzimləmə, normativ hüquqi aktların tələblərinə riayət olunmasına nəzarət, həmçinin, bu sahədə sertifikatlaşdırmanın və uçotun təşkili funksiyaları daxil olmaqla Agentliyin fəaliyyəti əsasən dövlət büdcəsi hesabına maliyyələşir və mənfəət əldə etmək məqsədi daşımır.

2023-cü ildə Agentliyin ümumi gəliri 1 milyon manat, əsas xərci isə işçi heyəti ilə bağlı olmaqla 1,8 milyon manat təşkil etmişdir. Agentliyin nizamnamə kapitalı 100 min manat, il sonunda cəmi aktivlərinin dəyəri isə 200 min manatdır.